
IM-107 AJ




Yanvar

2011

| Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 |

Yeni İl bayramı

Ümumxalq Hüzn günü

Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**

## SL-IM-107 PEYK*

KAINATDAN HƏR ŞEY SANKİ OVUCUNUN İÇİNDƏKİ KİMİ GÖRÜNÜR. Elə bu səbəbdən də monitorinq sistemlərinin açıq kosmosa çıxarılması – tamamilə məntiqə uyğun bir tendensiyadır. Əlbəttə, bu cür müşahidə metodu ən mürəkkəb texniki vasitələrin istifadəsini tələb edir. SL-IM-107 AJ peyki mühafizə olunan obyektlərdəki vəziyyəti gecə-gündüz fasiləsiz şəkildə müşahidə edir. Funksiyalarını yerinə yetirmək üçün peyk geniş bucaqlı yüksəksürətli optik kameralarla və müşahidə edilən ərazilərin səthini skan edən avadanlıqla təchiz edilmişdir. Bütün bu cihazlar obyektdə baş verən hər hansı bir arzuedilməz dəyişiklikləri vaxtında aşkar etməyə imkan verir.

Mühafizə edilən ərazilər barədə SL-IM-107 peyki vasitəsilə toplanmış informasiya Əsas Məlumat Mərkəzinə ötürülür. Burada bütün məlumatlar bu və ya digər fövqəladə hal əlamətlərinin olub-olmaması baxımından təhlil edilir. Fövqəladə vəziyyətin yaranması zamanı hadisələrin tanınmasının avtomatlaşdırılmış sistemi təhlükənin qarşısını almaq üçün zəruri işləri görəcəkdir. Sistem müvafiq xidmətləri xəbərdar edir, obyektdə qurulmuş fövqəladə hadisəyə operativ reaksiya vermə qurğularını (məsələn, tüstüsovurma, yanğınsöndürmə, qəza işıqlandırılması və s.) işə salır.

Kosmik monitorinqin əsas üstünlüyü – mühafizə olunan bütün ərazini ətrafı ilə birlikdə tam şəkildə nəzarətdə saxlaya bilməsidir. Bu zaman, belə ərazinin ən alçatmaz yerləri də "kosmik gözün" nəzarətindən kənarda qala bilmir. Kosmik aparatın məlumatların işlənməsi mərkəzinə ötürdüyü informasiyaların dəqiqliyi və dolğunluğu obyektdə olan həqiqi vəziyyət barədə tam və təfsilatlı təsəvvürün olmasına imkan verir.

*Bu, konseptual modeldir | © Safe Life, 2010




# Fevral 2011

| Ç.a. | Ç. | Ç.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | Ç.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | Ç.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | Ç.a. | C. | Ş. | B. | B.e. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| | | | | | | | | | | | | | | | | | | | | | | | | | Xocalı faciəsinin anım günü | | |

SAFE LIFE
Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**

## SL-ASG- 012 ROBOT*

ROBOTLAR YORULMURLAR. Bu həqiqəti qəbul edən "Safe Life" şirkəti öz fəaliyyətində artıq daha tez-tez avtomatik təhlükəsizlik təminatı sistemlərindən istifadə etməyə çalışır. Elektron mühafizəçi yemir, yatmır, yorulmur və ayıq-sayıqlığını itirmir. İndiyə qədər heç kimə robotu "ələ almaq" nəsib olmamışdır.

SL-ASG-012 modelli robot - ona həvalə edilmiş yerlərdə təhlükəsizliyin təminatı olan aparatın necə olmasının bariz nümunəsidir. Robotun "yaddaşına" hər hansı bir kart məlumatlarının yüklənə bilməsi mümkünlüyü nəticəsində bu elektron "mühafizəçi" obyektdə özünü çox "rahat" və "azad" hiss edir. O, bir otaqdan digərinə keçir, qapıları açır və bağlayır və s. Belə avtomatik "mühafizəçinin" "bədəninin hissələri" müşahidə kameraları və müxtəlif sensorlar (məsələn hərarət, hərəkət, tüstü xəbərdaredici cihazları) sistemi ilə təchiz edilmişdir. Bütün bunlar robota eyni zamanda həm şaquli və həm də üfüqi vəziyyətdə bütün istiqamətlər üzrə vəziyyəti qiymətləndirməyə imkan verir.

SL-ASG-012 avtomatik mühafizəçisinin "yaddaşına" çox böyük miqdarda fotoşəkillər və səs nümunələri, eyni zamanda müxtəlif biometrik və kimyəvi parametrlər yazılmışdır.

SL-ASG-012 robot modelinin idarəedilməsi, yəni onunla "ünsiyyət" - rahat istifadəçi interfeysinin vasitəsilə baş verir. Robotu müxtəlif funksiyaların - obyektdə kənar şəxslərin müəyyən edilməsindən başlamış, onu yanğından mühafizə etməyə qədər olan funksiyaların yerinə yetirməsinə proqramlaşdırmaq olar. Baş vermiş qeyri-standart hallar isə avtomatik mühafizəçinin yaddaşına yazılır və bununla da sanki bu "əməkdaş"ın "səriştəlik səviyyəsi" artır.

*Bu, konseptual modeldir | © Safe Life, 2010



# Mart 2011

| Ç.a. | Ç. | Ç.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | Ç.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | Ç.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | Ç.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | Ç.a. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 |
| | | | | | | | Qadınlar günü | | | | | | | | | | | | | Novruz bayramı | | | | | | | | | | Azərbaycanlıların soyqırımı günü |


Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**


## SL-R-148 ÇOPPER*

TƏYYARƏ, YOXSA HELİKOPTER? Hər iki uçan aparatın xarakterik cizgiləri SL-R-148 modelli çopperdə birləşmişdir. Çopper – mobil və sürətli kəşfiyyat aparatıdır. Turbinlərinin dəyişən dönmə bucağına malik olması çopperə eyni zamanda həm şaquli qalxmaq, həm də üfüqi xətt boyunca çox böyük sürətlə hərəkət etmək imkanı yaradır. Çopperin xüsusi qalxma-enmə zolağına ehtiyacı yoxdur. Bu aparat hər hansı bir yerdən, hər bir çəməndən havaya qalxır və təyinat yerinə ən qısa bir zamanda çatır. SL-R-148 uçan aparatı məhz belə manevrli olmaq üçün hesablanmışdır. Çopperin məqsədi – yanğınların aşkar edilməsidir. Elə bu səbəbdən də onun tətbiq edilmə sahəsi müxtəlif fövqəladə hallardır.

Kəşfiyyat funksiyalarına əlavə olaraq, çopper yanğınları söndürmək üçün də bəzi texniki imkanlar və vasitələrlə təchiz edilmişdir. Düzdür, mobilliyini saxlamaq üçün çopper minimal çəkiyə malik olmalıdır. Buna görə də SL-R-148 modelinin bortunda böyük miqdarda söndürən agent olmur. Amma, bəzən elə çopperdə olan odsöndürücü agent də kiçik yanğının lokallaşdırılmasına və söndürülməsinə kifayət edir.

Çopperdə olan odsöndürücü məhlulun səpilməsi sistemi tam avtomatikdir. Çopperin turbinlərinin altında quraşdırılmış şüşə skanerlər yanma baş verən ocağı, ona qədər olan məsafəni müəyyən edir. Sonra xüsusi proqram belə yanğının söndürülməsi üçün lazım olan məhlulun miqdarını və səpilməsi vaxtını hesablayır. Beləliklə də, çopperin pilotu əlavə hərəkətlərə yayınmaq zərurətindən azad olur və yalnız aparatı idarə edir.

*Bu, konseptual modeldir | © Safe Life, 2010



# Aprel

# 2011

| Ç. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

SAFE LIFE
Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**

## SL-FB-231 BAYK*

BAŞQALARININ KEÇƏ BİLMƏDİYİ yerlərə SL-FB-231 modelli bayk çox rahatlıqla çata bilir. Xüsusi yanğınsöndürmə sistemi ilə təchiz edilmiş bayk, meqapolis üçün əvəzi olmayan bir nəqliyyat vasitəsidir. Yüngül, mobil və eyni zamanda da çox sürətli və güclü olan bayk, şəhər şəraitində özünü rahat və azad hiss edir. Bu model idman motosiklinin konstruksiyası bazasında quraşdırılmışdır. SL-FB-231 modelli baykın bir çox üstün cəhətləri də elə idman motosiklindən keçmədir.

Məlum məsələdir ki, müasir meqapolislərin başlıca problemi avtomobil tıxaclarıdır. Lakin belə tıxaclar SL-FB-231 baykı üçün maneə deyildir. Beləliklə, baykın ən böyük üstünlüyü - onun çevik və manevrli olmasıdır. Bəzən insan həyatının və əmlakın salamat qalması, yanğınsöndürənlərin yanğın yerinə gəlib çatmalarının sürətindən asılı olur. Məsələn, bəzən yol-hərəkət hadisəsi zamanı nəqliyyat vasitəsi alışıb yanır. Lakin yanğınsöndürən maşın isə böyük şəhərdə olan avtomobil tıxacları səbəbindən gec gəlib çıxır. Elə məhz bu cür hallar nəzərə alınaraq SL-Fb-231 baykı yaradılmışdır.

Bayk, alova bürünmüş avtomobilin söndürülməsi üçün içərisində bir ədəd odsöndürən məhlul olan çənlə, və 20-30 metr uzunluğunda yanğın şlanqı ilə təchiz edilmişdir. Adi yanğınsöndürən maşının gəlib çatması müşkül məsələ olan genişmiqyaslı yanğın zamanı, məsələn bir neçə avtomobilin yanması zamanı, bir neçə belə baykdan istifadə oluna bilir. Bu cür 3-4 bayk şəhər yollarında, tunellərdə və iri qabaritli maşınlar üçün qapalı olan yerlərdə də belə böyük yanğınları söndürmək iqtidarındadır.

*Bu, konseptual modeldir

© Safe Life, 2010




# May 2011

| B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 |
| | | | | | | | | Faşizm üzərində Qələbə günü | | | | | | | | | | | | | | | | | | | Respublika günü | | | |


SAFE LIFE
Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**


## SL-PB-101 BOLİD*

ÇOXFUNKSİYALILIQ VƏ MƏHDUD PROFİLLİLİK. SL-PB-101 yanğınsöndürmə bolidini bu sözlərlə xarakterizə etmək olar. SL-PB-101 bolidi müəyyən şəraitlərdə yanğınların söndürülməsi üçün nəzərdə tutulmuş unikal yarış avtomobilidir. Əlbəttə, SL-PB-101 şəhər küçələri və torpaqlı yollarla gedə bilməz. Lakin onun imkanlarından tam şəkildə istifadə edilə bilən hava limanlarının uçuş-enmə zolaqlarında və yarış traslarında SL-PB-101 bolidi praktik olaraq əvəzedilməzdir. Yanğınsöndürmə bolidi – superçevik yanğınsöndürmə vasitəsi deməkdir.

SL-PB-101 bolidinin vəzifəsi, əsas yanğınsöndürmə dəstələrinin gəlməsinə qədər alovun operativ şəkildə lokallaşdırılmasıdır. Bunun üçün o, ciddi yanğının söndürülməsinə hesablanmış sistemlə təchiz edilmişdir. Bolidin damında iki böyük çən və spoylerin yerində iri bir balon vardır. Bunların içərisində olan məhlulla kifayət qədər böyük həcmli alovu neytrallaşdırmaq mümkündür.

SL-PB-101 bolidinin hermetik və yanğınadavamlı kabinəsində fövqəladə vəziyyət yaranan yerlərdən adamların təxliyyəsini (evakuasiyasını) də həyata keçirmək mümkündür. Avtomobilin qabaq və arxa hissələrində yerləşdirilmiş süsuni vintlər tüstüsovurma funksiyasını yerinə yetirirlər. Bolidin damında quraşdırılmış səsucaldan rabitə sistemi isə təhlükəli zonadan insanların təşkil edilmiş şəkildə çıxarılması üçün nəzərdə tutulmuşdur. Adətən, yüksək tüstülük şəraitində səs siqnalları və xilasedicilərin səsucaldan vasitəsilə dediyi göstərişlər, çətin vəziyyətdə olanların xilası üçün yeganə nişanə olur.

*Bu, konseptual modeldir

© Safe Life, 2010




# İyun 2011

| Ç. | Ç.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

15 – Milli Qurtuluş günü

26 – Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü

SL
SAFE LIFE

Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**

## SL-H201 HELİKOPTER*

AXTARIŞ VƏ XİLASETMƏ - helikopterin tətbiq edildiyi əsas sahələr məhz bunlardır. SL-H201 helikopteri ən müasir elektronika ilə təchiz edilmişdir. SL-H201 helikopteri su hövzələrində bəlaya düşmüş insanların axtarılıb tapılması və təxliyyə (evakuasiya) edilməsi üçün nəzərdə tutulmuşdur. Ona görə də bu helikopterin bütün sistemləri ekstremal şəraitlərə hesablanmışdır. Pis görüntü və şiddətli külək SL-H201 helikopteri üçün heç bir maneə deyildir.

Güclü ikili mühərriklərə malik olan bu helikopterin sürəti saatda 250 km/saatdan çoxdur. SL-H201 helikopterinin konstruksiyası ona həm gəminin göyərtəsinə, həm də suya qəza enişi komandasının yerinə yetirməsinə imkan verir. Helikopter içində hava olan balonlarla, hermetik füzelyajla, su buraxmayan alt hissə ilə təchiz edilmişdir ki, bu da ona 12 saat ərzində su üzərində qalmağa şərait yaradır. SL-H201 helikopterində etibarlı və yoxlanılmış rabitə sistemləri quraşdırılmışdır. Belə sistemlər vasitəsilə helikopterin ekipajını dispetçerlə və ya axtarış əməliyyatının digər iştirakçıları ilə əlaqələndirirlər. Eyni zamanda helikopter, yerləşdiyi məkan, hərəkət trayektoriyası, yanacağının miqdarı, hava şəraiti barədə gəmiyə və yaxud sahil bazasına avtomatik məlumat ötürmə sistemi ilə də təchiz edilmişdir.

SL-H201 helikopterinin qarşısında duran ən mühüm vəzifə – insanların xilas edilməsini təşkil edir. Bu uçuş aparatı 300 kq yükqaldırma qabiliyyəti olan bucurğadla təchiz edilmişdir. Qaldırılan insanları helikopterin gövdəsinə qəbul etmək üçün buradakı əlavə lyukun ölçüləri xərəklərin və ya xilasedici salın keçməsinə imkan verir. SL-H201 helikopterinin salonuna eyni zamanda 16 nəfərə kimi adam yerləşə bilər.

*Bu, konseptual modeldir | © Safe Life, 2010




## İyul 2011

| Ç. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 |

SAFE LIFE
Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**

### SL-SM-506 HÖRÜMÇƏK*

SL-SM-506 markalı yanğın-xilasetmə aqreqatı hər bir maneəni aşa bilir. Bu maşının xarici görünüşü hörümçəyə bənzəyir ki, bu da təəccüblü deyildir. Çünki, bu maşının konstruktorları onun quraşdırılması zamanı məhz hörümçəyin vərdişlərini oraya "köçürməyə" çalışmışlar. Bu "Hörümçək" heç bir nəqliyyat vasitəsinin gedə bilmədiyi, o cümlədən hətta tırtıllı nəqliyyatın keçə bilmədiyi yerlərə gəlib çata bilir. Yolların olmaması, yarğanlar, yıxılmış ağaclar, daş qalaqları və divarlar – SL-SM-506 aqreqatının çox böyük ölçüləri belə maneələri saya almamağa imkan verir. "Hörümçək" özünün uzun, bir neçə seqmentdən ibarət olan ayaqlarının vasitəsilə yolunda olan hər hansı maneənin üzərindən atlayıb keçir. Əgər onun qarşısında olan maneə həddən çox böyük və hündürdürsə, onda SL-SM-506 sanki bir hörümçək kimi sadəcə olaraq bu maneənin üstünə dırmanacaqdır. Hörümçək-maşın "ayaqlarının" hidravlik ötürücülərinin gücü hesabına "bədənini" qaldırır. Belə konstruksiyaya malik olması ona hətta düz şaquli divara da qalxmağa imkan verir.

SL-SM-506 yanğınsöndürmə sistemi ilə təchiz edilmişdir. İçərisində odsöndürücü agent olan balonlar maşının arxa hissəsində yerləşmişlər. Buradakı məhlulun miqdarı böyük olmayan yanğının söndürülməsinə kifayət edir. Effektiv tüstüsovurma sisteminin vasitəsilə "Hörümçək" özü üçün zəruri görünüş bucağı yaradır. Hələ bundan da başqa, SL-SM-506 çox güclü işıqlandırma sistemi ilə də təchiz edilmişdir. Belə işıqlandırma ekipaja ən mürəkkəb vəziyyətlərdə istiqaməti itirməməyə imkan verir. Maşının təxliyyə kabinəsi ona hadisə yerindən eyni zamanda 8 nəfəri çıxarmaq imkanı yaradır.

*Bu, konseptual modeldir | © Safe Life, 2010




# Avqust 2011

| B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | 31 | | | | |

SAFE LIFE
Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**

## SL-IM-34-J BATİSKAF*

SL-IM-34-J batiskafı – dünyanın ən böyük dərinliklərə düşə bilən aparatlarından biridir. Bu batiskaf 2,5 km dərinliyə qədər enə bilir. Müasir zamanda getdikcə daha çox kommunikasiya xətləri dəniz dibi ilə çəkilir. Ona görə də belə aqreqatlara olan tələbat durmadan artmaqdadır. Belə aparatların başlıca fəaliyyət istiqamətləri neft-qaz yataqlarının kommunikasiya xətləri və hissələri, neft borularının monitorinqi və təmiridir. Bu sahədə olan çatışmazlıqların aradan qaldırılmasının və ya işlərin görülməsinin sürətindən və keyfiyyətindən, neft-qaz borusunun sahibi olan təşkilatın fəaliyyətinin iqtisadi əsası və ümumiyyətlə regiondakı ekoloji vəziyyət asılı olur.

SL-IM-34-J batiskafında içərisində operator olan kabinə vardır. Bu kabinədə manipulyatorların – batiskafın "əllərinin" idarə edilməsi mərkəzi də yerləşmişdir. Manipulyatorlar müxtəlif dəyişilən başlıqlar formasında olurlar. Belə başlıqlar yerinə yetirilən işlərdən asılı olaraq dəyişdirilirlər. Batiskaf həmçinin dəniz dibindən nümunələr götürmək üçün xüsusi qurğularla da təchiz edilmişdir.

SL-IM-34-J aparatında olan müasir foto- və videoaparatura suyun dibində baş verənlər barədə təsvirləri almağa imkan verir. Batiskafda olan müasir rabitə sistemlərinin köməyilə isə sualtı aparatın ekipajı sahil xidmətləri ilə və digər üzən vasitələrlə məlumat mübadiləsi aparır.

*Bu, konseptual modeldir | © Safe Life, 2010




# Sentyabr 2011

| Ç.a. | Ç. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

SL
SAFE LIFE
Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**

## SL-VP-90 BƏRƏ*

HAVA YASTIĞI ÜZƏRİNDƏ olan SL-VP-90 bərəsi həm suda, həm də quruda yanğınları söndürür. Bu qurğu, digər gəmilərin keçə bilmədiyi yerlərdə, məsələn, dayaz yerlərdə və ya sahilkənarı zonada – yanğın ocaqlarının söndürülməsi işi üçün hesablanmışdır. Belə bir xüsusiyyət SL-VP-90 bərəsini həm dənizdə, həm də quruda yerləşə bilən qaz və neft platformalarının və terminallarının yanğın təhlükəsizliyinin təmin edilməsi məsələsində demək olar ki, əvəzedilməz edir.

Bərənin əsas üstün cəhəti odur ki, o, həm su üzərində, həm də ki, quru səth üzərində eyni şəkildə müvəffəqiyyətlə hərəkət edə bilir. Onun hərəkət sürəti saatda 100 km-ə çatır.

Bərənin gövdəsi bərkkeyfiyyətli materiallardan hazırlanmışdır. Bu səbəbdən də o, yanmır və maneəsiz şəkildə alov mənbəyinə maksimal yaxın gələ bilir. SL-VP-90 bərəsinin hərəkət etməsi üçün onun yastığına püskürülən havaya xüsusi reagent qatırlar. Bu reagent yastığın və havanın yanmasının qarşısını alır.

SL-VP-90 bərəsi ixtiyarında olan ən rahat və əlçatan agent – adi dəniz suyu vasitəsilə alovu söndürür. Bərənin istifadə etdiyi digər söndürmə yolu – dispersiya metodudur. Bu zaman, bərənin nasosları vasitəsilə püskürülən dəniz suyu hava ilə qarışır və alov içərisində olan obyektin üzərinə su dumanı şəklində vurulur. Alovla təmasa girən bu duman buxara çevrilir. Buxar da öz növbəsində alovun oksigenlə qidalanmasına imkan vermir və alov sönməyə başlayır. Ətrafda olan suyun demək olar ki, qeyri-məhdud miqdarını nəzərə alaraq, SL-VP-90 bərəsi təkbaşına kifayət qədər ciddi yanğını söndürməyə qadirdir.

*Bu, konseptual modeldir | © Safe Life, 2010




# Oktyabr 2011

| Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 |

Dövlət Müstəqilliyi günü

SL SAFE LIFE

Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**

## SL-BM-12 DİRİJABL*

ALOVLANAN YANĞINLAR daha dəqiq və effektiv şəkildə havadan SL-BM-12 dirijablı vasitəsilə söndürülə bilərlər. Bu nəhəng maşın təyyarədən də, helikopterdən də qat-qat uzun müddət ərzində havada qala bilər. Belə bir texniki xüsusiyyət isə ona yanğınlarla mübarizədə çox böyük imkanlar verir. SL-BM-12 dirijablının digər hava nəqliyyatı vasitələri qarşısında olan böyük üstünlüklərindən biri də - onun manevrli və çevik olmasıdır. Dirijablın yüksəklik və istiqamət sükanları onun ekipajına yanan obyektə ən minimal məsafəya yaxınlaşmağa imkan verir. Bu isə, müvafiq olaraq, alovlanma ocağının daha dəqiq söndürməyə şərait yaradır. Yanğın üzərində "asılan" dirijabl metodik şəkildə və məqsədyönlü tərzdə ödsöndürücü agenti alova tərəf boşaldır.

Amma, yanğınla mübarizədə SL-BM-12 dirijablının seçilməsinin ən əsas dəlili onun böyük yükgötürmə qabiliyyətidir. Dirijabl öz anbarlarına tonlarla su dolduraraq və yanacağın qurtarmasından narahat olmayaraq saatlarla yanğın üzərində fırlanır və ödsöndürən agenti dəqiq şəkildə alova buraxır. SL-BM-12 dirijablının belə texniki xüsusiyyətləri ondan yanacaq yanğınları zamanı daha məhsuldar şəkildə istifadə etməyə imkan verir. Belə ki, bu cür yanğınlar bəzən çox böyük sahəni tuta bilərlər. Bu tipli yanğınlar zamanı dirijablın bir uçuşu yanğınsöndürən təyyarələrin 50-dən çox uçuş reysini əvəz edə bilir. SL-BM-12 dirijablı sutkalar boyunca havada qala bildiyindən, onun bu xüsusiyyətindən ən təhlükəli vaxtlarda yanğın təhlükəsi olan ərazilərdə növbə çəkmək üçün istifadə edilir.

*Bu, konseptual modeldir. | © Safe Life, 2010




# Noyabr 2011

| Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

Dövlət bayrağı günü
Konstitusiya günü
Milli Dirçəliş günü

SL
SAFE LIFE

Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**

## MİNA ZƏRƏRLƏŞDİRƏN ROBOT*

PARTLAYIŞ TƏHLÜKƏSİ OLAN ərazilərin minadan təmizlənməsi üçün SL-J15 çoxfunksiyalı robot insanı əvəz edir. Robot texnikası sahəsində ən son nailiyyətlərdən biri olan bu aqreqatdan insan faktorunun olması arzuedilməz sayılan yerlərdə istifadə edilir. Məsələn, minalanmış otaqlar, kimyəvi, radioaktiv və ya bioloji təhlükəsi yüksək olan sahələr və digər insan sağlamlığına və həyatına zərər verə bilən yerlər bu qəbildəndir.

SL-J15 modeli - çox yığcam və kompakt bir robotdur. Belə ki, onu rahat şəkildə mikroavtobusda və ya minivendə daşımaq mümkündür. Amma, kiçik ölçülərinə baxmayaraq, robotun yerinə yetirdiyi işlərin diapazonu kifayət qədər genişdir. Faktiki olaraq, bu robot sanki insanın davamıdır və insana xas olan bütün manipulyasiyaları həyata keçirir. SL-J15 müxtəlif xəbərdaredici cihazlar və izləmə kameraları ilə təchiz edilmişdir. Robot, onu idarə edən operatora yerləşdiyi məkan haqqında tam məlumatı ötürür. Bu məlumatlara istinad edən operator də vəziyyətə görə müvafiq qərar qəbul edir və bu və ya digər əməliyyatın yerinə yetirilməsini robota "tapşırır".

SL-J15 robotu iki dəst dəyişilən manipulyatorlarla təchiz edilmişdir. Bu manipulyatorlar yanğın brandspoytları və yüksəkhissiyyatlı mexaniki "əllərdir". Belə "əllərin" köməyi ilə robot az qala zərgər dəqiqliyi ilə iş görür. SL-J15 robotu odsöndürücü agentlə təchiz edilmişdir. Bu miqdar məhlul ona kiçik yanma ocaqlarının söndürülməsinə kifayət edir. İki sıra tırtılla təchiz edilmiş bu maşının yüksək keçmə qabiliyyəti vardır. O, dərə-təpəli yollarla gedə, 60 dərəcə əyilmə bucağı olan yamacları aşa bilir. Robotun gövdəsi xüsusi bərk materialdan hazırlanmışdır ki, bu da lokal partlayışlar zamanı onun zədələnməməsinə imkan verir.

*Bu, konseptual modeldir | © Safe Life, 2010




# Dekabr 2011

| Ç.a. | C. | Ş. | B. | B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |

| B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | 31 | |

31 – Dünya azərbaycanlılarının Həmrəyliyi günü

SL SAFE LIFE
Azərbaycan, Bakı
AZ 1069
Ziya Bünyadov pr., 43
**tel./fax:** +994 12 514 43 44/45/46
**mob.:** +994 50 250 10 90
**e-mail:** info@safelife.az
**www.safelife.az**

## SL-ZH-5 KATER*

BAŞLICA DƏNİZ YANĞINSÖNDÜRƏNİ SL-ZH-5 kateridir. Bu kater su üzərində yanğınsöndürmə əməliyyatını həm təkbaşına yerinə yetirmək, həm də qlobal xilasetmə əməliyyatına rəhbərlik etmək üçün bütün zəruri keyfiyyətlərə və texniki xüsusiyyətlərə malikdir. SL-ZH-5 kateri dənizdə baş verən yanğınların söndürülməsində ən əsas aqreqatlardan biridir. Kater həm dəniz gəmilərində, həm də yanan neft platformalarında alovla mübarizə apara bilir.

Yanğınsöndürən katerin gövdəsi müasir odadavamlı materiallardan hazırlanmışdır. Katerin belə korpusa malik olması ona yanan obyektin praktiki olaraq bilavasitə yanaşmağa imkan verir. SL-ZH-5 katerində çox böyük miqdarda odsöndürən agent ehtiyatı vardır. Bundan başqa, katerdə güclü nasos sistemi mövcuddur ki, bu da dəniz suyu ilə yanğının söndürülməsini təmin edə bilir.

Yanğınsöndürmə katerinin ixtiyarında dənizdə yanğınsöndürmənin idarə edilməsi mərkəzi rolunun yerinə yetirilməsi üçün avadanlıq da vardır. Əgər xilasetmə əməliyyatında digər gəmilər, təyyarələr və helikopterlər də iştirak edirlərsə, onda SL-ZH-5 kateri onların arasında əlaqəni təmin edir. Bu zaman, kater bütün yanğınsöndürmə vasitələrinin işini əlaqələndirir və nizamlayan komanda mərkəzinə çevrilir.

Bütün bunlarla yanaşı, fövqəladə hallar zamanı xəsarət alanlara ilk tibbi yardım göstərmək üçün, katerdə zəruri avadanlığı və xüsusi təlim keçmiş personalı olan tibb məntəqəsi də fəaliyyət göstərir. Böyük su tutumu olan SL-ZH-5 kateri həm də təxliyyə (evakuasiya) gəmisi rolunu oynayaraq, kifayət qədər çox sayda yaralını qəbul edə bilir.

*Bu, konseptual modeldir | © Safe Life, 2010